# Muğam Mərkəzində növbəti konsert - ruhumuzun səsi



**Musiqili gecə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində Humanitar Kollecin təşkilatçılığı ilə keçirilib.**

Kollecin direktoru, musiqişünas Nərmin Qaralova bildirib ki, sözügedən təhsil müəssisəsinin yaradıcı heyəti hər zaman tematik konsert proqramları ilə izləyicilərin görüşünə gəlib: "Bu dəfə isə tamam fərqli bir musiqili gecənin şahidi olacağıq. Çünki həmişəki tədris proqramından bir qədər kənara çıxmışıq. Çalışmışıq ki, klassik, ənənəvi və milli musiqini sintez edərək ifaçılarımızın ruhlarının dərinliklərindən gələn səsi dinləyiciyə çatdıraq.

Layihə çərçivəsində həm də Humanitar Kollecin "Dekorativ - tətbiqi incəsənət" və "Təsviri sənət" fakültəsinin tələbələrinin yaradıcı işlərindən ibarət sərgi nümayiş olunub.

Azərbaycan. - 2024.- 4 may, №91.- S.15.